# “Azərbaycan Respublikası Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikasının Qanunu

Maddə 1

Azərbaycan Respublikasının Mülki Məcəlləsi təsdiq edilsin.

Maddə 2

(Qüvvədən düşüb)**[2]**

Maddə 3

Azərbaycan Respublikasının Mülki Məcəlləsi qüvvəyə mindiyi gündən «Azərbaycan SSR Mülki Məcəlləsinin təsdiq edilməsi haqqında» Azərbaycan Sovet Sosialist Respublikasının 1964-cü il 11 sentyabr tarixli Qanunu ilə təsdiq olunmuş Azərbaycan Respublikasının Mülki Məcəlləsi (Azərbaycan SSR Ali Sovetinin məlumatı, 1964-cü il, № 26, maddə 121) qüvvədən düşmüş hesab edilsin.

Maddə 4

4.1. Azərbaycan Respublikasının Mülki Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi haqqında 1964-cü ildən etibarən qəbul olunmuş Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanlarının təsdiq edilməsi barədə Azərbaycan Sovet Sosialist Respublikasının qanunları (onların müvafiq hissələri), habelə bu maddədə göstərilən Azərbaycan Respublikasının qanunları (onların hissələri) və digər normativ hüquqi aktları 2000-ci il iyunun 1-dən ləğv edilsin:

4.2. «Azərbaycan SSR mülki və mülki prosessual məcəllələrinin qüvvəyə minməsi qaydası haqqında» Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin

1965-ci il 23 yanvar tarixli Fərmanı (Azərbaycan SSR Ali Sovetinin məlumatı, 1965-ci il, № 3, maddə 37);

4.3. «Azərbaycan SSR mülki və mülki prosessual məcəllələrinin qüvvəyə minməsi ilə əlaqədar olaraq Azərbaycan SSR qanunvericilik aktlarının dəyişdirilməsi və qüvvədən düşmüş hesab edilməsi haqqında» Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1965-ci il 2 mart tarixli Fərmanı (Azərbaycan SSR Ali Sovetinin məlumatı, 1965-ci il, № 7, maddə 55);

4.4. «Azərbaycan SSR Mülki Məcəlləsinin 299-cu maddəsində dəyişiklik edilməsi haqqında» Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1966-cı il 23 dekabr tarixli Fərmanı (Azərbaycan SSR Ali Sovetinin məlumatı, 1966-cı il, № 24, maddə 230);

4.5. «Azərbaycan SSR Mülki Məcəlləsi 261-ci maddəsinin tamamlanması haqqında» Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1969-cu il 27 may tarixli, 816-VII saylı Fərmanı (Azərbaycan SSR Ali Sovetinin məlumatı, 1969-cu il, № 10, maddə 75);

4.6. «Azərbaycan SSR Mülki Məcəlləsinin 364-cü maddəsində dəyişiklik edilməsi haqqında» Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1970-ci il 8 sentyabr tarixli, 2146-VII saylı Fərmanı (Azərbaycan SSR Ali Sovetinin məlumatı, 1970-ci il, № 17, maddə 138);

4.7. «Azərbaycan SSR mülki və mülki prosessual məcəllələrinə dəyişiklik və əlavələr edilməsi haqqında» Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1973-cü il 19 yanvar tarixli, 440-VIII saylı Fərmanı (Azərbaycan SSR Ali Sovetinin məlumatı, 1973-cü il, № 2, maddə 13);

4.8. «Azərbaycan SSR Mülki Məcəlləsinə dəyişiklik və əlavələr edilməsi haqqında» Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1974-cü il 15 mart tarixli, 802-VIII saylı Fərmanı (Azərbaycan SSR Ali Sovetinin məlumatı, 1974-cü il, № 5, maddə 28);

4.9. «Azərbaycan SSR Mülki Məcəlləsinə dəyişiklik və əlavələr edilməsi haqqında» Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1974-cü il 6 iyun tarixli, 869-VIII saylı Fərmanı (Azərbaycan SSR Ali Sovetinin məlumatı, 1974-cü il, № 11, maddə 74);

4.10. «Azərbaycan SSR mülki və mülki prosessual məcəllələrinə dəyişiklik və əlavələr edilməsi haqqında» Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1974-cü il 6 iyun tarixli, 870-VIII saylı Fərmanı (Azərbaycan SSR Ali Sovetinin məlumatı, 1974-cü il, № 11, maddə 75);

4.11. «Azərbaycan SSR Mülki Məcəlləsinin 305 və 531-ci maddələrinin Azərbaycan mətninə redaksiya düzəlişləri edilməsi haqqında» Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1975-ci il 26 fevral tarixli, 1105-VIII saylı Qərarı (Azərbaycan SSR Ali Sovetinin məlumatı, 1975-ci il, № 3-4, maddə 17);

4.12. «Azərbaycan SSR Mülki Məcəlləsinin 490-cı maddəsinə əlavələr edilməsi haqqında» Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1976-cı il 12 noyabr tarixli, 360-IX saylı Fərmanı (Azərbaycan SSR Ali Sovetinin məlumatı, 1976-cı il, № 21, maddə 140);

4.13. «Azərbaycan SSR cinayət, mülki, cinayət prosessual, mülki prosessual, islah-əmək, nikah və ailə məcəllələrinə dəyişiklik və əlavələr edilməsi haqqında» Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1977-ci il 28 mart tarixli, 463-IX saylı Fərmanının II hissəsi (Azərbaycan SSR Ali Sovetinin məlumatı, 1977-ci il, № 5-6, maddə 33);

4.14. «Azərbaycan SSR mülki və mülki prosessual məcəllələrinə dəyişiklik və əlavələr edilməsi haqqında» Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1978-ci il 13 yanvar tarixli, 735-IX saylı Fərmanı (Azərbaycan SSR Ali Sovetinin məlumatı, 1978-ci il, № 1-2, maddə 8);

4.15. «Azərbaycan SSR Mülki Məcəlləsinə dəyişiklik və əlavələr edilməsi haqqında» Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1982-ci il 20 yanvar tarixli, 791-X saylı Fərmanı (Azərbaycan SSR Ali Sovetinin məlumatı, 1982-ci il, № 1-2, maddə 4);

4.16. «Azərbaycan SSR-nin bəzi qanunvericilik aktlarına dəyişiklik və əlavələr edilməsi haqqında» Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1985-ci il 14 noyabr tarixli, 220-XI saylı Fərmanının V hissəsi (Azərbaycan SSR Ali Sovetinin məlumatı, 1985-ci il, № 21, maddə 204);

4.17. «Azərbaycan SSR- nin bəzi qanunvericilik aktlarına əlavə və dəyişikliklər edilməsi haqqında» Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1986-cı il 16

iyun tarixli, 423-XI saylı Fərmanının V hissəsi (Azərbaycan SSR Ali Sovetinin məlumatı, 1986-cı il, № 12, maddə 72);

4.18. «Azərbaycan SSR-nin Mülki Məcəlləsinə və bəzi başqa qanunvericilik aktlarına dəyişiklik və əlavələr edilməsi haqqında» Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1986-cı il 17 noyabr tarixli, 554-XI saylı Fərmanının I hissəsi (Azərbaycan SSR Ali Sovetinin məlumatı, 1986-cı il, № 21-22, maddə 159);

4.19. «Azərbaycan SSR Mülki Məcəlləsinin 102-ci maddəsinə dəyişiklik və əlavələr edilməsi haqqında» Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1987-ci il 18 avqust tarixli, 834-XI saylı Fərmanı (Azərbaycan SSR Ali Sovetinin məlumatı, 1987-ci il, № 15-16, maddə 156);

4.20. «Azərbaycan SSR torpaq və mülki məcəllələrinə dəyişikliklər edilməsi haqqında» Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1987-ci il 15 sentyabr tarixli, 856-XI saylı Fərmanı (Azərbaycan SSR Ali Sovetinin məlumatı, 1987-ci il, № 17, maddə 169);

4.21. «Azərbaycan SSR-nin bəzi qanunvericilik aktlarına dəyişiklik və əlavələr edilməsi haqqında» Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1987-ci il 29 dekabr tarixli, 988-XI saylı Fərmanının I hissəsinin birinci bəndi (Azərbaycan SSR Ali Sovetinin məlumatı, 1987-ci il, № 24, maddə 253);

4.22. «Azərbaycan SSR Mülki Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikasının 1990-cı il 30 iyul tarixli, 1880-XI saylı Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, 1990-cı il, № 13-14, maddə 174);

4.23. «Azərbaycan Respublikasının Mülki Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikasının 1992-ci il 18 avqust tarixli, 272 saylı Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, 1992-ci il, № 16, maddə 685);

4.24. «Azərbaycan Respublikasının Mülki Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikasının 1992-ci il 11 noyabr tarixli, 373 saylı Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, 1992-ci il, № 21, maddə 920);

4.25. «Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə, Cinayət Prosessual Məcəlləsinə, Mülki Prosessual Məcəlləsinə və Mülki Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikasının 1993-cü il 26 noyabr tarixli, 746 saylı Qanununun IV hissəsi (Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, 1993-cü il, № 23-24, maddə 673);

4.26. «Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişiklik və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikasının 1994-cü il 1 noyabr tarixli Qanununun I hissəsi (Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, 1995-ci il, № 8, maddə 157);

4.27. Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 230-cu maddəsində dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 1995-ci il 12 sentyabr tarixli, 1106 saylı Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, 1995-ci il, № 22, maddə 358);

4.28. «Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikasının 1996-cı il 6 fevral tarixli, 18-IQD saylı Qanununun I hissəsi (Azərbaycan Respublikasının qanunvericilik toplusu, 1997-ci il, № 1, maddə 6);

4.29. «Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikasının 1996-cı il 5 noyabr tarixli, 188-IQD saylı Qanununun 1 hissəsi (Azərbaycan Respublikasının qanunvericilik toplusu, 1997-ci il, № 3, maddə 226);

4.30. «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarına əlavələr və dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 1997-ci il 7 fevral tarixli, 245-IQD saylı Qanununun I hissəsi (Azərbaycan Respublikasının qanunvericilik toplusu, 1997-ci il, № 4, maddə 307);

4.31. «Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikasının 1997-ci il 25 aprel tarixli, 285-IQD saylı Qanununun II hissəsi (Azərbaycan Respublikasının qanunvericilik toplusu, 1997-ci il, № 5, maddə 387);

4.32. «Azərbaycan Respublikasının Mülki Məcəlləsinə dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 1997-ci il 30 sentyabr tarixli, 373-IQD saylı Qanunu (Azərbaycan Respublikasının qanunvericilik toplusu, 1998-ci il, № 1, maddə 8);

4.33. «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında» Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və İnzibati hüquqpozmalar haqqında »Azərbaycan Respublikasının Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi barədə» Azərbaycan Respublikasının 1999-cu il 2 aprel tarixli, 651-IQD saylı Qanununun I hissəsi (Azərbaycan Respublikasının qanunvericilik toplusu, 1999-cu il, № 5, maddə 287).

Maddə 5

(Çıxarılıb) [3]

Azərbaycan Respublikasının Prezidenti   Heydər Əliyev

Bakı şəhəri, 28 dekabr 1999-cu il

№ 779-IQ

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

**1.** 26 may 2000-ci il tarixli 886-IQ nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 5, maddə 323**)

**2.** 24 iyun 2005-ci il tarixli 949-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 8, maddə 693**)

1.

<u>**QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**</u>

[1] 26 may 2000-ci il tarixli 886-IQ nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 5, maddə 323**) ilə Qanun 2000-ci il sentyabr ayının 1-dən qüvvəyə minmişdir.

**[2]** 26 may 2000-ci il tarixli 886-IQ nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 5, maddə 323**) ilə 2-ci maddə qüvvədən düşmüş hesab edilmişdir. Əvvəlki redaksiyada deyilirdi:

~~Maddə 2~~

~~Azərbaycan Respublikasının Mülki Məcəlləsi 2000-ci il iyunun 1-dən qüvvəyə minir.~~

**[3]** 26 may 2000-ci il tarixli 886-IQ nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 5, maddə 323**) ilə 5.2-ci maddə qüvvədən düşmüş hesab edilmişdir. Əvvəlki redaksiyada deyilirdi:

~~5.2. Bu Qanun 2000-ci il iyunun 1-dən qüvvəyə minir.~~

24 iyun 2005-ci il tarixli 949-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 8, maddə 693**) ilə 5-ci maddə çıxarılmışdır. Əvvəlki redaksiyada deyilirdi:

~~Maddə 5~~

~~5.1. Azərbaycan Respublikasının mülki qanunvericiliyi sisteminə daxil olan, lakin Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olmayan normativ hüquqi aktlar (onların müvafiq hissələri və ya müddəaları), habelə mülki hüquq normalarını müəyyənləşdirən başqa normativ hüquqi aktlar (onların müvafiq hissələri və ya müddəaları) həmin Məcəlləyə uyğunlaşdırılanadək tətbiq edilə bilməz.~~

~~5.2. (Qüvvədən düşüb)~~